## *Mövzu 3.* SİYASİ HAKİMİYYƏT, ONUN DAŞIYICILARI – QENDER ASPEKTİ

1. *«Siyasi hakimiyyət» anlayışının mahiyyəti və onun daşıyıcıları*
2. *Kişi və qadın arasında hakim səlahiyyətlərinin bölüşdürülməsinin tarixi əsasları*
3. *Demokratiya nəzəriyyəsi və qərarın qəbul edilməsində qender bərabərliyi*
4. *Hakim səlahiyyətlərinin bölüşdürülməsində qender aspekti*
5. *Azərbaycanda qender və siyasi hakimiyyət*

### 1. «Siyasi hakimiyyət» anlayışının mahiyyəti və onun daşıyıcıları

Məlumdur ki, siyasi hakimiyyət politologiyanın başlıca kateqoriyasıdır. O, cəmiyyətin siyasi sferasının qabaqcadan təyin edilməsinə və mahiyyətinin dərk edilməsinə imkan yaradır. Siyasi biliklər, hər şeydən əvvəl, cəmiyyətdə hakimiyyət münasibətlərinin mahiyyətinin dərk edildiyi, istiqamətləndirildiyi şəraitdə artırdı.

«Hakimiyyət anlayışı» cəmiyyət və siyasətin əsas başlanğıclarından biridir. O, sabit insan qrupların olduğu hər yerdə mövcutdur: ailədə, istehsalat kollektivlərində, təşkilat və müəssələrdə, bütün ölkədə – bu halda biz ali siyasi hakimiyyətlə əlaqədə oluruq.

Bütün hakimiyyət növləri kimi, siyasi hakimiyyət də bəzilərinin digərlərinə münasibətdə öz iradələrini həyata keçirmək, əmr etmək və idarəetmə bacarıq və imkanlarını bildirir. Siyasi hakimiyyət, ona malik olan, onu bütün cəmiyyətin idarəçiliyində və rəhbərliyində öz iradəsini tətbiq etdirmək bacarıq və imkanları kimi xarakterizə olunur.

Hakimiyyətin əhəmiyyətli dərəcədə effektli istifadə olunması onun sosial tərkibi – idarəolunanların maraqlarına uyğun və ya zidd hərəkət etmə bacarığı ilə müəyyənləşir.

Hakimiyyətin başlıca mənbəyi, daşıyıcısı olan insanla əlaqələrinin bir neçə növü mövcuddur. İnsan və hakimiyyətin vahidliyi çərçivəsində, onlar arasındakı əlaqələrin iki variantı baş verir. Birinci variant hakimiyyətə sosial, mənəvi, dini sahələrdə qaydanı təmin etmək üçün istifadə olunan, vasitə kimi münasibəti nəzərdə tutur. Belə əlaqələr özündə rəhbərin öz ardıcıllarının maraqlarını təmin etmək bacarığını birləşdirən liderlik xüsusiyyətini formalaşdırır.

İnsan və hakimiyyətin vahidliyinin ikinci variantı – hakimiyyətə münasibəti bir məqsəd kimi nəzərdə tutur. Bu çərçivə daxilində insan və hakimiyyət mexanizminin tam qovuşduğu, şəxsi həyatın hakimiyyətin tələblərinə tam tabe edən xüsusiyyətləri birləşdirən «avtoritar şəxsiyyət» formalaşır.

Müasir cəmiyyətdə hakimiyyətin şəxsiyyət ölçüsünün və siyasətin insan amilinin artması baş verir. Bu təmayülün mahiyyətinə bütün qanunvericilik sistemində insan hüquqlarının prioriteti, o cümlədən beynəlxalq aləmdə və şəxsi təşəbbüsün və siyasi prosesləri hər bir iştirakçısının fəallığının əhəmiyyətli dərəcədə artması da vacibdir. Siyasi prosesin əsas iştirakçıları, siyasi hakimiyyətin komponentləri, onun subyekti, obyekti və vasitələridir. Subyekt və obyekt hakimiyyətin bir başa daşıyıcıları, agentləridir. Subyekt və obyekt kimi ayrı-ayrı insanlar, təşkilatlar, insan birlikləri (xalq) və yaxud, BMT-də birləşən beynəlxalq təşkilatlar da ola bilər.

Cəmiyyətin üzvləri arasında əməyin ilkin bölüşdürülməsi, qadınları qeyri-bərabər, kişilərdən asılı vəziyyətə saldı.

Bütün XIX əsr qadınlar üçün – onların sosial eyniliyinin, şəxsiyyət kimi hüquqlarının tərkib və təsdiq olunduğu hududda axtarışı, cəmiyyətin tam hüquqlu subyekti, vətəndaşı və üzvü olmaq, siyasi proses və siyasi qərarların qəbulunda iştirakçısı olmaq uğrunda aparılan mübarizələrlə xarakterizə olunur.

Alimlərin çoxu qender mənsubluğunun siyasi idarəetmənin xarakter və üslubuna, hakim səlahiyyətlərin sərəncamına, hakimiyyət anlayışının özünün dərk olunmasına güclü təsir etdiyi fikrinə tərəfdar çıxır.

Son zamanlar Empoweremet nəzəriyyəsi geniş yayılmışdır. Feministlər təsdiq edir ki, kişilər hakimiyyəti *üstündə hökmranlıq (*power over*)* kimi, təsir göstərmək və hakim olmaq kimi, qadınlar isə hakimiyyətdə öz gücünü dərk etmək *üçün* (Empoweremet) kimi qəbul edir. Empoweremet terminini onlar hakimiyyətlə bağlı *üzərində hökmranlıq* yox, *səlahiyyət* kimi istifadə edir. 1980-ci illərdə təklif olunmuş gücünün dərk olunması (Empoweremet) konsepsiyası siyasətin feminist təyini üçün mərkəzi mövqeyə çevrildi. Feminizm nəzəriyyəsi həmçinin hesab edir ki, qadınlar hakimiyyəti nəinki kişilərdən fərqli, bir başqa cür müəyyən edir, həm də ondan başqa cür istifadə edirlər. Empoweremet feministlərin ona verdiyi mənada bir zamanlar əzilən şəxsiyyətlərin öz taleyinə sahib durmaq, işlərdə iştirakını genişləndirmək və hakim strukturlarda olmaq imkanını qazanması prosesidir. Bunun nəticəsində hakimiyyətin ənənəvi anlamdakı başqaları üzərində hökmranlıq yaxud üstün olmaq şəklindəki istifadəsi yox, səlahiyyət kimi, yaxud da səriştə kimi başa düşülməsi yaranır. Hakimiyyət isə qadınların əlində kişilərin əlindəkindən daha kooperativ və az konfrontasiyalı görünür. Siyasətə qadına xas olan bu yanaşmaya inam da elə seçmə hakim mövqelərdə qadınların sayının artması tələbi üçün daha çox istifadə olunan dəlillərdəndir.

Hal-hazırda bəzi beynəlxalq təşkilatlar, fondlar Empoweremet nəzəriyyəsinin praktikada inkişafı üzrə kompleks tədbirlər (seminarlar, treninqlər, görüşlər və s.) təşkil edir. Həmin proyektlərin məqsədi qadınlarda müstəqilliyinin, təşəbbüskarlığın inkişafı, siyasi və hüquqi savadsızlığın ləğv olunması, qadının real siyasi qüvvəyə çevrilməsi və sıx qadın qrupları şəbəkəsinin yaranmasıdır.

Hakimiyyətin aşağıdan, fərdi planda Empoweremet həyata keçirməklə, həmçinin hüquqi, sosial və siyasi sahələrdə formalaşması ləng gedir. Hakimiyyətin kollektiv formalaşması və təşkilinin səmərə və sabitlik dərəcəsinə qiymət vermək çətindir. Hələlik struktur dəyişiklikləri üçün institusional və ictimai şəraiti qismən yaxşılaşdırmaq olardı. Onların bazis işi və məqsədli qruplardan olan qadınlarla bilavasitə əlaqəsi ilə yanaşı, proyektlər vətəndaş vasitəsi və dövlət arasındakı ictimai kampaniyalar, lobbiləşmə və monitorinq vasitəsi ilə aparılan danışıqlarda fəaldır. Onlar qadın maraqlarına cəmiyyətin diqqətini cəlb edir, qadın təşkilatları və hərəkatlarını vətəndaş cəmiyyətinin bir hissəsi kimi formalaşdırır. Bununla yanaşı, layihələrin əksəriyyətində digər sosial qüvvələrlə ittifaq siyasətinin hələ zəif olmasına baxmayaraq, bir çox ölkələrdə layihələr hüquq-müdafiə və demokratik hərəkatlarla əməkdaşlıq edir.

Empoweremet konsepsiyasının tarixi böyük olmasa da uğurludur. Beynəlxalq siyasi proqramlarda 1985-ci ildə Nayrobidə keçirilən 3-cü Ümumdünya qadın konfransında yarandığı gündən həmin konsepsiya özünün tətbiq dairəsini əhəmiyyətli dərəcədə genişləndirmişdir. Nəzəriyyənin istiqamətlərindən biri empoweremet qadın maraqlarının irəli çəkilməsinə (özü də “aşağıdan”) səmtləniş siyasi strategiya kimi təqdim olunmuşdur. Bu nəzəriyyənin tərəfdaşları qadınlara dəstəyin “inkişafa inteqrasiya” siyasətinə və fenimizmin bərabərliyə yönəlmiş növünə əsaslanırlar. Qadınların özlərini hakimiyyət “istehsal etməsi”nə əsaslanan strategiya ABŞ-da, 1960-ci illərdə “Black power” (Qara hakimiyyət) hərəkatı tərəfindən, həmkarlar ittifaqı hərəkatının nümayəndəsi Sola Alinskinin «necə güclü olmağ üzrə təlimatı»nda və Paolo Freyenin «Əzilişlərin pedagogikası»nda irəli sürülmüşdür.

Empoweremet konsepsiyasının tərəfdarları hakiiyyət dedikdə qadının ehtiyatlara daxil ola bilməsi və onlara nəzarət etməsini, həmçinin ev işində və siyasətdə, iqtisadiyyatda, mədəniyyətdə qərarlar həyata keçirmək imkanını nəzərdə tutur. Empoweremet məqsədi qadını klassik mənada “inkişaf etdirmək”, yaxud “irəli sürmək” olan bir yanaşma kimi başa düşulur, bu – demək olarki qadının özünügücləndirmə prosesidir. Kollektiv hərəkat burada qender münasibətləri sahəsində (elə sosial və beynəlxalq münasibətlərdə də belədir) hakimiyyət koordinatlarında dəyişikliyi təyin edən ilkin şərt rolunda çıxış edir.

## 2. Kişi və qadın arasında hakim səlahiyyətlərinin bölüşdürülməsinin tarixi əsasları

Siyasətdə qender bərabərsizliyi, siyasi qərarların qəbulunda qadınların aşağı səviyyədə təqdim olunması son zamanlar daha çox tədqiqat obyektinə çevrilir və həmin problemin aradan qaldırılması məsələsi daha kəskin əhəmiyyət kəsb edir. Əgər XIX əsrin əvvəlində və xüsusən də XX əsrin birinci onilliklərində aktual məsələ qadına seçki və digər mülki, siyasi hüquqların verilməsi idisə, son onilliklərdə isə sosioloq və politoloqlar daha çox qadının hakimiyyətə gəlməsi problemindən, qender və hakim səlahiyyətlərinin bölüşdürülməsi problemindən danışırlar. Əksər cəmiyyətlərdə qender xüsusiyyətinə və kişi ilə qadın arasında hakimiyyətin bölüşdürülməsindəki fərqə və fərqləndirmə qabiliyyətinə əsaslanaraq onları müxtəlif şəkildə qəbul edir və qiymətləndirirlər. Coan Skottun sözlərinə görə, «qender mənsubluğunun dərk olunması – sosial münasibətlərin cinslər arasında qəbul edilən fərqə əsaslanmış konstruksiya elementidir; cins isə hakim münasibətlərin prioritet ifadə vasitəsidir».

Kişi və qadın anlayışlarının bir-birindən ayrılması ilə bağlı ənənəvi yanaşma onların bəri başdan qeyri-bərabər olmasını, kişinin üstünlüyü və qadının tabeçiliyini nəzərdə tutur. Bütövlükdə hakimiyyət və siyasi hakimiyyət də, o cümlədən ənənəvi olaraq bir çox əsrlər ərzində və hətta minilliklər uzunu istisna şəkildə kişi ilə eyniləşdirilirdi. Bir qayda olaraq gücə əsaslanan hakimiyyət məhz kişiyə məxsus ola bilərdi və məxsus idi. İctimai şüurda və təcrübədə hakim münasibətlərin mövcud olan paylaşma sxeminə əsasən kişi – hakimiyyətin subyekti, qadın isə onun obyekti kimi nəzərdən keçirilirdi; özü də bu sxem ailədən başlayaraq dövlət idarəçiliyinə qədər bütün ictimai dairələr üçün səciyyəvi idi.

Qadın və kişi üçün müxtəlif cür yaşayış şəraiti müəyyənləşdirmiş əməyin ilkin bölümü, kişi və qadının, bütövlükdə cəmiyyətdə və, o cümlədən cəmiyyətin ayrı-ayrı institutlarında, sosial rolunun və mövqeyinin bölüşdürülməsi cinsin sosiallaşmasına mühüm dərəcədə təsir göstərdi. Əsas maddi dəyərlərin bir qrup insanın əlində mərkəzləşməsi təkcə sinfi yox, həm də qender bərabərsizliyi yaratdı. Cəmiyyət üçün ən qiymətli olan reproduktiv funksiyanı yerinə yetirən qadın olsa da, parçalanma nəticəsində asılı vəziyyətə məhz qadınlar düşdü. Kişilərə «xarici» fəaliyyət, dünyanı fəth etmək və ona hökmranlıq hüququ, bunun da nəticəsində – tarixin subyekti və hakim səlahiyyətlərin sahibi rolu; qadına isə dünyaya uşaq gətirmək və onu tərbiyə etmək, məişəti qaydaya salmaq, yeni «xüsusi» deyilən sahədəki həyat hüququ aid edildi. Lakin burada – «xüsusi» sahədə də qadın kişi nüfuzundan asılı oldu, onun hökmranlıq obyektinə çevrildi.

Kişi ilə qadın arasında əvvəlcədən bərabər, partnyor münasibətlərinin olmasına tədqiqatçılar ən qədim insan qəbirləri ilə bağlı arxeoloji qazıntı materiallarını təhlil edərkən sübüt tapmışlar. Qazıntılar basdırılanların cinsindən asılı olmayaraq bərabər statusu olduğunu təsdiq edir. Lakin arxaik cəmiyyətdə qadının oynadığı yüksək rola şahidlik edən o zamanlar Qədim Avropada geniş yayılmış Böyük Ana-Allah ayinidir. Amerika feminist-antropoloqu Rian Ayslerin sözlərinə görə, praktiki olaraq bütün tarixəqədərki mif və rəvayətlərdə «bədənindən hər hansı həyatın yarandığı və ölümdən sonra yenidən doğulmaq üçün hər şeyin geri qayıtdığı səxavətli Ana olan Kainat ideyası yaşayır».

Qədim dövrlərdən başlayaraq XX əsrə kimi bu dövr «kişi hökmranlığı» tarixidir. Çoxsaylı kral, çar, imperatorlar arasında yalnız bir neçə qadın adı vardır ki, onlar da yalnız hakim sülaləyə, kral mənşəsinə mənsub olduqları üçün hakimiyyətə gəlmişdi və «Allahın xeyir-duasını» aldıqları üçün bu hakimiyyətdən cinsə görə məhrum ola bilməzdilər. Bəzi ölkələrdə isə, məsələn, Fransada hətta qadın cinsinə aid olan çar xanımları da kral taxtına iddiaçı ola bilməzdi və qadın xətti ilə taxta miras olmaq qadağan idi. Qadının siyasi hakimiyyətdən məhrum edilməsinə əsrlər uzunu neqativ amil kimi yanaşılmırdı. Hesab edilirdi ki, bu qadının kişi üzərindəki gizli hökmranlığının

əvəzini çıxır. Belə ki, ingilis filosofu Samyuel Conson yazırdı: «Təbiət qadına o böyüklükdə hakimiyyət verib ki, qanun onu müdriliklə daha artıq səlahiyyətdən məhrum edib». Hətta fransız Maarifçiliyinin nümayəndəsi Şarl Lui Monteskye demişdi: «Bəzi hallar istisna olmaqla qadınlar bərabərliyə can atmır, çünki onların imtiyazı onsuz da həddindən artıqdır; onlara bərabər hakimiyyətin verilməsi «qadın imperiyası hökmranlığı» demək olacaqdır». 1673-cü ildə Pol de lya Barr özünün «Qadın da kişi qədər yaxşıdır» traktatında qadının da kişi kimi siyasi və hərbi hökmranlığa malik olmaq və sərəncam vermək qabiliyyətinin olmasından söz açırdı. Barr, sonrakı illərdə və əsrlərdə isə qender partnyorluğunun digər tərəfdarları əfsanəvi amazonkaları, Janna d`Arkı, ingilis kraliçəsi Yelizaveta Tüdoru, rus imperatriçəsi II Yekaterinanı, Avstriya hökmdarı Mariya Terezanı misal gətirirdi.

### 3. Demokratiya nəzəriyyəsi və qərarın qəbul edilməsində qender bərabərliyi

XX əsrin son onilliklərində demokratiya ideyalarının yayılması, əksər ölkələrdə qadına seçki hüququnun verilməsi hakim nüfuza sahib olmaq və onu saxlamaqda kişi ilə qadının qeyri-bərabər imkanlarını aktuallaşdırdı. Federal və yerli qanunvericilik və icra orqanlarında qender bərabərliyinə və hakimiyyətin ən yüksək pillələrində onlar arasında ədalətli tarazlığa nail olmaq məsələsi ilə bağlı elmi mübahisələrdə əhalinin bəzi qruplarının, o cümlədən qadınların sayının nədən daha çox olmasının vacibliyi tez-tez qaldırılır. Qərar qəbul etmə səviyyəsində qadınların daha çox sayda təqdim olunmasının xeyrinə səslənən çoxsaylı dəlillər bir neçə demokratiya nəzəriyyəsi ilə əlaqələndirilir.

Təbii ədalət və rəmzi bərabərlik prinsipinə əsaslanan demokratiya nəzəriyyəsi qadınların siyasi hakimiyyətdə, ictimai vəzifələrdə, müxtəlif sahələrdə (təhsil, biznes, istehsal), idarəetmədə kişilərlə bərabər iştirakı üçün bünövrə yaradır; çünki Amerika tədqiqatçısı Syuzan Kerollun dediyi kimi, «onların daha çox sayda təqdim olunması demokratik hüquq kimi nəzərdən keçirilir, qadınların fəal iştirak etməməsi isə demokratik prinsipin qeyri-düzgün iş indikatoru kimi qəbul olunur». Bununla əlaqədar parlament demokratiyası qadınların sayının bir məqsəd olaraq, dəyişiklik gətirib-gətirməməsindən asılı olmayaraq çox olmasını tələb edir. Mütənasib təmsilçilik ideyası da buna olduqca yaxındır. Mütənasib təmsilçilik nəzəriyyəsinə əsasən, əhalinin müxtəlif təbəqələri, o cümlədən qadınlar hakimiyyətin yüksək eşelonlarında onların ümumi kütlədəki sayına mütənasib təmsil olunmalıdır.

İkinci qrupun mərkəzində belə bir fikir durur ki, daha çox sayda qadının siyasi strukturlara daxil olması və onların ümumiyyətlə hakimiyyətə buraxılması son illərdə siyasətçilərin və siyasi həyatın qoyduğu xoşagəlməz təəssüratın aradan qaldırılmasına xidmət edərdi. Qadınların qərar qəbul etmə prosesindən xaric edilməsi onlar üçün siyasi korrupsiyada iştirak etməyənlər imicini yaratmışdı, yəni onlardan «xüsusi maraqlardan azad» hərəkət gözləmək daha düzgündür. Həmin nəzəriyyənin tərəfdarları hesab edir ki, lazimi təhsil səviyyəsinə (bir çox ölkələrdə müasir qadınların təhsil və ixtisas səviyyəsi kişilər ilə eyni səviyyədədir və yaxud ondan da yüksəkdir) malik olduğu üçün qadın yüksək vəzifə tuta bilər və diskriminasiya, onun da nəticəsində qadınların məsul vəzifəyə təyin olunmaması cəmiyyət üçün mühüm itgi sayıla bilər.

Üçüncüsü, nümayəndəlik demokratiyası qadınların hakimiyyətə daha fəal daxil olmasını ona görə tələb edir ki, belə halda siyasi mədəniyyət və siyasi gündəlik də vacib dəyişikliklərə məruz qalacaqdır. Qadınların həyat təcrübəsi başqa olduğundan onların siyasi prioriteti kişilərinkindən fərqlənir. Nəticədə daha çox sayda qadının hakim strukturlara təyin olunması ictimai siyasətin dəyişməsinə gətirib çıxaracaqdır.

Eyni zamanda əsasən kişi tərkibli hakimiyyət orqanlarında (məsələn, parlament, nazirlər kabineti, şəhər soveti) qadınların məsul və mühüm vəzifədə olması, yəni onların rəmzi təmsilçiliyi adətən siyasi prioritetlərə zəif təsir göstərir və dəyişikliklərin baş verəcəyinə zəmanət vermir. Britaniya tədqiqatçısı Jill Bestidinskinin qeyd etdiyi kimi, «belə şəraitdə qadınlar hakimiyyətə o zaman nail ola bilir ki, ya kişi kimi hərəkət edir

(buna Marqaret Tetçeri misal gətirmək olar), ya da qadın marağını əks etdirən fikir ifadə etməyə cəhd göstərərsə, kişi həmkarları arasında özünə dəstək tapa bilmir. Skandinaviya və digər Şimali Avropa ölkələrinin təcrübəsinə əsasən isbat etmək olar ki, hakimiyyət orqanlarında qadınların təmsil olunması o zaman təsirli olur ki, bu rəqəm heç olmasa 15% təşkil etsin. Lakin hakimiyyət orqanında qadınların sayının artması özü-özlüyündə azdır. Qadınlar öz maraqlarını dərk etməli, müasir mədəniyyətdə öz səsinə malik olmağı bacarmalıdırlar.

### 4. Hakim səlahiyyətlərinin bölüşdürülməsində qender aspekti

Qadınların siyasi hakimiyyətə sahib olması, onun əldə saxlanması və səmərəli istifadəsi yolunda çoxsaylı çətinliklərlə bağlıdır. Yuxarıda qeyd etdiyimiz kimi, bəşər tarixi – əsasında kişi üstünlüyünün dayanmış olduğu patriarxat cəmiyyət modelinin hökmranlığı tarixidir. Əvvəllər o verbal şəkildə elan edilmiş, ideoloji və institusional şəkildə möhkəmlənmişdi. Qadın ailə daxilində kişidən, qrup şəklində isə kişi hökmranlığından asılı vəziyyətdə qalmışdı. Kişinin hakim mövqeyi cəmiyyətdə formal şəkildə hüququn köməkliyi ilə, qeyri-formal olaraq isə gündəlik həyatın ümumi qəbul edilən qaydaları, ənənələri, adətləri şəklində dəstək almışdı. Əgər qanunvericilik qaydasında ölkələrin əksəriyyətində qadının siyasətə və hakimiyyətə buraxılması ilə bağlı məhdudiyyət götürülmüşdürsə də, qeyri-rəsmi məhdudiyyət və maneələr hələ də mövcuddur.

XX əsrin sonu və XXI əsrin əvvəlində baş verən müəyyən tərəqqiyə, hazırlanmış qanunvericilik aktlarına, beynəlxalq təşkilatların dəstəyinə baxmayaraq şüur stereotipləri səviyyəsində (məsələn, siyasət qadın işi deyil), həm də qeyri-şüur (məsələn, dil) səviyyəsində kişi üstünlüyü qalmaqdadır. Tabeçilik, bir qayda olaraq, bir çox amillərdən asılıdır: hakimiyyət subyektinin göstərişlərinin obyektin mövqeyi ilə üst-üstə düşməsindən; ona verilən tələblərin xarakterindən; situasiyadan və təsir vasitələrindən; rəhbərin icraçılar tərəfindən necə qəbul edilməsindən; onun nüfuza sahib olub-olmamasından. Hətta subyekt və obyektin maraqlarının eyniliyi şəraitində qadının hakimiyyətə sahib olması onun qadın cinsinə aid olması ilə əlaqədar subyektin nüfuzunun olmaması üzündən lazımi nəticə verməyə bilər. Əlbəttə ki, bütün bunlar əhalinin siyasi mədəniyyəti ilə, mentalitetlə və digər amillərlə müəyyən olunur.

Qadınlar tərəfindən hakimiyyətin əldə olunması və saxlanılması problemi cəmiyyətdə hakimiyyət ehtiyatlarının qeyri-bərabər paylanılması ilə bağlıdır. Məlum olduğu kimi hakimiyyətin mənbələrinin bir neçə kökü var – iqtisadi, sosial, mədəni, informasiya və s., amma ən təsirli hakimiyyət mənbəyi güc ehtiyatlarıdır (silah, ordu, polis, məhkəmə, prokurorluq), çünki onlar insanı ən əhəmiyyətli həyati dəyərlərdən – mülkiyyət, azadlıq və həyatdan məhrum edə bilər.

Tarixdən ancaq bir neçə qadın müdafiə naziri məlumdur (Finləndiyadakı Elizabet Reen, Kanadadan Kim Kempbell). Hakimiyyətin digər strukturlarına nisbətən məhkəmə orqanlarında qadınların daha çox cəmləşdiyini müşahidə etmək olar.

Feministik tədqiqatlar belə nəticəyə gəliblər ki, siyasi hakimiyyət haqqında olan ənənəvi təşəbbüslər, onu məcbur etmə, kiminsə və nəinsə üzərində hökmranlıq etmək üçün vasitə kimi qələmə verir. Eyni zamanda hakimiyyəti insanların gündəlik qarşılıqlı əlaqələri prosesində, mikrosəviyyədə hiss edən qadınlar, onu nəisə həyata keçirilməsi üçün istifadə olunan imkanlar toplusu kimi səciyyələndirir. Feministlərin fikrincə qadınların hakimiyyətə nüfuz etməsi prosesini qadınların siyasi hakimiyyətdəki fəaliyyətinin başlanğıcı hesab etmək olar.

Qadınların cəmiyyətdəki təyinatı haqqındakı mübahisələr beynəlxalq birliklərin qəbul etdiyi sənədlərdə: BMT-nin Konvensiyaları – (Qadınların siyasi hüquqları haqqında (1959); Qadınlara qarşı münasibətdə bütün ayrı-seçkiliklərin ləğv edilməsi (1979); Bərabər dəyərlərə əsasən, əməyə görə kişi və qadınların eyni mükafatlandırılması (1993), Deklorasiyalar – BMT-nin Qadınlara qarşı təcavüzün,

zorakılığın aradan qaldırılması haqqında (1993); demokratiyanın əsas meyarı olan qadın və kişilərin bərabərliyinin yaradılması (1997); qadınların kişilər kimi tarixin gedişində bərabər hüquqlu subyekt olduğunu təsdiqləyən digər sənədlərdə tamamlandı.

XX əsrin 80-ci illərində Qərbdə qadınlar təssərüfatın iqtisadi və o cümlədən cəmiyyətin bütün ictimai sferalarını mənimsəməyə can atırdılar.

Qadınlar siyasi sferada fəal iştirak etməyə başlayırlar. Onlar yerli hakimiyyət orqanlarının fəaliyyətini himayəyə götürür, şəhər icra hakimiyyəti başçısı seçilir, bələdiyyə müşavirləri, regional şuraların deputatı, parlament deputatları, hökümət başçıları və hətta prezident olmağa nail olurlar.

Həyat təsdiq etdi ki, qadınların siyasi həyatdakı fəaliyəti, kişilərə nisbətən daha rəngarənqdir. Digər tərəfdən, qadın-siyasətçi bəzi vəziyyətlərdə, əsl kişi davranış taktikasına meyl edir. Belə bir qadın əminliklə qərarlar qəbul edir və məqsədə çatmaq üçün vasitələrin seçilməsində daha qətidir. Digər tərəfdən Avropadakı qadın hərəkatının müasir tədqiqatları sübut edir ki, qadının siyasi fəaliyyətinə, kişilərin klassik fəaliyyətindəki təcəvüzkarlıq və avtoritarizm çox cuzi miqdarda xasdır.

Siyasi hakimiyyət strukturlarında kişi və qadınların fəallığı və proporsional nümayəndəlik müasir dövrün bir çox suallarına açar rolunu oynaya bilər. Qadınların siyasi davranışı kişilərin aqressiv hərəkətlərinə qarşı «amartizator» rolunu oynayır, digər tərəfdən isə kişilərin iştirakı qadınların davranışına məntiqlik və uzaqgörənlik qatır.

Bir bütövün iki ayrı hissəsi arasında əməkdaşlığın pozulması, bəşəriyyətin mövcudluğunun, bəşəriyyətin inkişaf prinsiplərinin pozulmasına, dünyada xoşbəxtliyin və layiqli həyatın qurulmasına mane olur.

Hal-hazırda dünyada 17 qadın hökmdar (Böyük Britaniyanın, Danimarkanın və Niderlandın kraliçələri də daxil olmaqla) vardır, ümumiyyətlə isə tarixdə 30 qadın-prezident, 28 qadın-baş nazir olub. Bu və başqa tarixi misallardan göründüyü kimi, qadınlar ölkəni diktaturaya (Akino, Mireya de Arios), yaxud xarici istilaya (İzrailin baş naziri Qolda Meir) qarşı birləşdirə; bir neçə on illik mövcud olan hərbi rejimdən (Haitinin prezidenti Erta Paskal) ya da çox illik vətəndaş müharibəsindən (Liberiya Dövlət şurasının sədri Rut Perri) sonra ictimai qaydanı bərpa edən, region lideri rolunda çıxış edə («karib dəmir ledisi», Doikanın baş naziri Mari Yevgeniya Çarlz), orduda göstərdiyi xidməti ilə seçilən (Tito azadlıq ordusunun iştirakçısı köhnə sosialist Yuqaslaviyasının federal baş naziri Milka Planiç), fəal hərbi əməliyyatlar keçirə (Kürdlərlə bağlı çox uğurlu olmasada siyasəti ilə seçilən Türkiyənin sabiq baş naziri Tansu Çillər), inflyasiyaya üstün gələrək yeni, səmərəli vergi sistemi yarada bilən (Yeni Zellandiyanın baş naziri Elen Elizabet Klark) güclü siyasi lider olmağ bacarığı nümayiş etdirmişlər. O fakt da maraqlıdır ki, bəzi ölkələrdə qadının hakimiyyətə gəlməsi çox zaman kişilərin hakim səlahiyyət əldə etməsi yolundan fərqlənir. Belə ki, bəzi ölkələrdə qadının hakimiyyətə gəlişi ailə amili ilə, görkəmli siyasi xadimlərlə qohumluqla bağlıdır. Bütövlükdə isə qadınların hakimiyyətə ailə amili və şəraitinin təsiri ilə daxil olması ilə əlaqədar çox faktlar məlumdur.

Qadınların hakimiyyətə sahib olması problemi həmçinin cəmiyyətdə hakim ehtiyatların qeyri-bərabər bölüşdürülməsi ilə bağlıdır. Məlum olduğu kimi, bir neçə hakim ehtiyatlar növü mövcuddur – iqtisadi, sosial, mədəni, informasiya və s., amma ən effektiv və təsirli sayılan güc ehtiyatlarıdır (silah, ordu, məhkəmə, prokurorluq), çünki onlar insanı onun üçün çox vacib dəyərlərdən – əmlakından, azadlığından və həyatından məhrum edə bilər. Bütün ölkələrdə ənənəvi olaraq güc ehtiyatları kişilərin əlindədir. Tarixdə cəmi bir neçə qadın müdafiə naziri olub (məsələn, Finlandiyada Elizabet Reen yaxud Kanadada Kim Kempbell). Polis, prokurorluq işçilərinin əksəriyyəti kişilərdir; yalnız məhkəmə orqanlarında digər hakim strukturlarla müqayisədə daha çox sayda qadının cəmləşdiyi müşahidə edilə bilər.

Qender və hakimiyyət problemi hakimiyyətin daşıyıcıları (liderlər, elita) ilə sıx sürətdə bağlıdır. Qender mənsubiyyəti siyasi elitanın toplanması və fəaliyyət

göstərməsində olduqca vacib əhəmiyyətə malikdir. Elitanın gildiya toplanma sisteminin rəhbər olduğu bir çox ölkələrdə isə qender mənsubiyyəti (məhz qadın cinsinə mənsubluq nəzərdə tutulur) əsas «süzgəc»lərdən birinin rolunu oynayır. Əksər cəmiyyətlərdə yayılmış, lakin əsasən sözlə deyilməyən və təbliğat edilməyən patriarxat və proteksionizm konsepsiyaları da qadının hakimiyyətə buraxılmasına mənfi təsir edir. Çünki, bəri başdan qadını kişidən asılı vəziyyətə salır, qadınlarda hakimiyyətdən lazımi şəkildə istifadə edə biləcəyinə şübhə yaradır. Bu cür ideyalar qadını təşəbbüskarlıqdan, özünütəkmilləşdirmə cəhdindən məhrum edir və kişilərin qəbul etdiyi hər hansı hakim qərarın yeganə düzgün qərar olduğu, ya da ki həmin halda qadının qəbul edəcəyi qərardan minimum daha doğru olacağı barədə yalan təsəvvür yaradır.

Məsələn, Monqol Prezidiumunun sədri Sekbatarin, Arqentinanın Prezidenti Mariya Estela Martinez de Peron, Qviana Prezidenti Canet Ceqan, Filippinin Prezidenti Korason Akino, Nikaraquanın Prezidenti Violetta Barrios de Çamorro, Banqladeşin Baş naziri Xaleda Ziya, Hindistanın Baş naziri İndira Qandi, Pakistanın Baş naziri Benazir Bxutto misal ola bilər.

Kişi və qadınların hakimiyyətə gəlməsi üçün bərabər şərait yaratmağın mühüm mexanizmlərindən biri kvota sistemidir. Bu sistemin məqsədi qadının siyasi mövqeyə cəlb edilməsi və onun siyasi həyatdan təcrid edilməsinin aradan qaldırılmasıdır. O, qadınlara müxtəlif hakimiyyət orqanlarında, institutlarında, strukturlarında (namizədlik siyahıları, parlament assambleyaları, komitetləri, hökumət) müəyyən sayda yerin ayrılmasını nəzərdə tutur. Bir qayda olaraq, kvota sisteminin məqsədi qadınlara minimum 30-40% yerin verilməsidir. Kvota qadınların siyasətə daxil olmasına mane olan maneələr ləğv olunca tətbiq edilən müvəqqəti ölçüdür. Əksər hallarda kvotadan qanunvericilik orqanlarında qadınların təmsilçiliyini gücləndirmək məqsədi ilə istifadə olunur və bu, qadınların əhalinin yarısından çoxunu təşkil etdiyi ölkələr üçün daha aktualdır. Kvota sistemi qender-neytral xarakter daşıya bilər, o – tək qadınların yox, kişilərin də qeyri-bərabər təmsil olunmasına qarşı yönəlmişdir. Bəzən ənənəvi olaraq qadınların üstünlük təşkil etdiyi (saya görə), məsələn, sosial sahədə (düzdür, bu sahələrdə də hakim mövqelər bir qayda olaraq kişilərin əlində olur) kişilərin daha çox təmsil olunması üçün tətbiq edilir. Belə kvota sistemləri həmçinin fəalların çoxunun qadın olduğu Danimarkanın Sosialist Xalq partiyasında da istifadə edilir.

### 5. Qender və siyasi hakimiyyət Azərbaycanda

Azərbaycanda da «Qender və hakimiyyət» problemi getdikcə daha böyük aktuallıq kəsb edir. Ölkənin hakim strukturlarında qender paritetinin təmin olunmasında çoxsaylı qeyri-rəsmi maneələr mövcuddur ki, onlar qadının hakimiyyətə daxil olmasını çətinləşdirir. Qadınların əksəriyyəti əvvəlki kimi başqa işləri siyasətdən üstün tutur və lap hakimiyyətə iddiaçı olsalar da, onu ənənəvi - təhsil, səhiyyə və s. kimi «qadın» sahələri ilə məhdudlaşdırırlar. Qadınların hakimiyyət səlahiyyətini həyata keçirilməsini bir qayda olaraq sosiomədəni amillərin təsiri ilə bağlı olan bir çox maneələrə rast gəlirik ki, «hökmran qadın», «sərt qadın rəhbər» və s. kimi terminlərin özü normadan kənar bir şey sayılır və elə bəribaşdan qadına yaraşmayan keyfiyyət kimi tənqidə məruz qalır. Eyni zamanda siyasətçi-qadınlar də qadın cinsinə aid olduğlarını «unutmağa» çalışırlar. «Qadın – evin, ocağın qoruyucusu» idealının üstünlük təşkil etdiyi mühitdə cinsi olmayan siyasətçi qadın obrazı geniş yayılmışdır və danışığında, hərəkətlərində, davranışında qadın özünü istədiyi kimi yox, başqalarının ondan gözlədiyi kimi aparmağa məcburdur. Çox vaxt qadın liderlər üçün öz femin daxilini açıq şəkildə biruzə vermək qeyri-məqbul və hətta ayıb sayılır; faktiki olaraq o özünü nə qədər avtoritar, kişi kimi apararsa, rəsmi şəkildə açıqlanmayan, lakin mövcud olan kişi oyun qaydalarına o qədər uyğun gəlir. Ölkəmiz üçün yuxarıda haqqında danışdığımız kişi-qadın subordinasiyası problemi də olduqca aktualdır ki, qadın rəhbərin yerinə yetirdiyi hətta ən müdrik və

səmərəli qərar belə tabeçilikdə olan kişilərin həmin qərara əməl etmək istəməməsi üzündən ləngiyə bilər.

Müxtəlif səviyyələrdə hakim mövqeyə malik olan qadın bir qayda olaraq özünə kişi müavin, assistent seçir, bu da adətən onların daha yüksək professional səviyyəsi ilə izah edilir, halbuki müvafiq şəraitdə həm kişinin, həm də qadının bacarığı eyni ola bilər; fərq ondadır ki, qadının həmin qabiliyyətini aşkar etmək imkanı kişidən daha azdır. Çox zaman qadın özü də hakimiyyət obyekti şəklində məhz kişini görməyə üstünlük verir. Bəzi kütləvi informasiya vasitələrində ictimai şüurda, özü də əhalinin qadın hissəsində qadın liderinin xoşagəlməz obrazının yaradılmasına istiqamətləmiş «dəlil» hələ də təbliğ olunur. Əksər ölkələrin fərqli xüsusiyyəti odur ki, şəhər əhalisi qadının hakimiyyətə daxil olması məsələsində olduqca tərəqqipərvər mövqe tutur. Lakin Azərbaycan şəhər və kənd əhalisi arasındakı tərəqqipərvərlik səviyyəsi fərqinin çox kiçik olması ilə seçilir.

İctimai şüurda mənəvi dəyərlərdə, mentalitetdə baş vermiş dəyişikliklər son onilliklərdə Azərbaycan qadınına qarşı münasibəti də dəyişdirdi. Bizdə əvvəlki kimi qadın cinsinin zəifliyi barədə təsəvvür üstünlük təşkil edir və qadınların çiyninə düşən fiziki zəhmət, psixoloji yük, ağır məişət yükü həmin təbii zəifliklə ziddiyyət təşkil edir; daha doğrusu zəiflik kişi hökmranlığından total asılılıq kimi qəbul edilir.

İnkişaf etmiş ölkələrdə qadının sosial-iqtisadi vəziyyətinin yaxşılaşması (onların evdə iş görmək və uşaqlara baxmaq üçün qulluqçu tuta bilməsi, ev işini yüngülləşdirən elektrik məişət cihazları ala bilməsi, uşaqlarını daha yaxşı uşaq bağçasına verə bilməsi və daha qlobal olaraq öz vəsaitindən seçki kampaniyası məqsədi ilə istifadə edə bilməsi) onun siyasətə və hakimiyyətə cəlb olunması üçün vacib şərt kimi nəzərdən keçirilir. Bizdə qadınların çoxu üçün ailəni necə dolandırmaq daha aktual problem olduğundan qadınların da əksəriyyəti siyasi karyera başlamağın belə vəziyyəti yaxşılaşdırmaq cəhdi kimi məqsədini olduqca şəffaf və ağlasığmayan hesab edir, üstəlik də onlar patriarxal münasibətlər şəraitində tərbiyə olunduqları nəzərə alınmalıdır.

Getdikcə daha çox sayda qadının hakimiyyətə daxil olması problemi bir çox ölkələr kimi, Azərbaycan üçün də olduqca vacibdir. Qadına hakimiyyətin ehtiyacı var, çünki qadınlar dəyişiklik katalizatoru rolunu oynaya bilər; onların hakim strukturlara gəlişi bütövlükdə cəmiyyətdə qadın əhalisinin və demək olar ki, ayrılıqda götürülmüş hər bir qadının statusunun yaxşılaşması üçün obyektiv vacib şərtdir. Bundan savai, qadınlarla bağlı dövlət siyasəti müstəqil bir istiqamət olmalıdır. Çünki qadınların vəziyyəti ilə əlaqədar spesifik problemlər qrupu mövcuddur və həmin problemləri qadın daha yaxşı anlaya və onu həll etmək üçün yollar təklif edə bilər. Eyni zamanda hakimiyyətə gəlişi sırf qadın problemləri həll etməli olduğunu demək düzgün deyil.

Qadın-lider cəmiyyət üçün daha mühüm olan (bu problemlər isə həm kişilərə, həm uşaqlara, həm də qocalara aid ola bilər) problemləri həll etməlidir. Dünya təcrübəsi siyasətdə (digər sahələrdə olduğu kimi) elə sahələrin olduğunu göstərir ki, orada qadın, yaxud kişilər daha səriştəlidir. Lakin bu o demək deyildir ki, məsələn, səhiyyə, yaxud təhsil sahəsində kişilər rəhbər vəzifə tutmamalıdır, yaxud qadın daxili işlər naziri ola bilməz. Burada hər şey konkret hadisədən, mühitdən, şəraitdən asılıdır, amma hər halda hakim vəzifəyə təyin edərkən, yaxud seçərkən qender əlamətini yox, professional xüsusiyyətləri rəhbər tutmaq gərəkdir. Qadınların rəhbər mövqelərdə olmasına tərəfdar çıxaraq hər şeydən əvvəl kəmiyyət yox, keyfiyyət göstəricilərini əsas götürmək lazımdır. Bizim parlamentdə 13 nəfər qadının olması deputat qadınlarımızın «qadın xarakterli» problemlərin həllində fəal iştirakını sübüt etmir. Bütövlükdə dövlətin rəhbər səviyyədə təmsil olunan qadınların sayının artmasını mühüm vəzifə kimi müəyyən etməsinə (məsələn, Azərbaycan Respublikası Prezidentinin qadın siyasətinin həyata keçirilməsi ilə əlaqədar 6 mart 2000-ci il tarixli Fərmanı) baxmayaraq, bu istiqamətdə inkişaf hələ çox ləng gedir.

## İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYATIN SİYAHISI


1. Azərbaycan Respublikasının Konstitusiyası. – B., 2001
2. Azərbaycan dövlət qadın siyasətinin həyata keçirilməsi haqqında. Azərbaycan Respublikası Prezidentinin Fərmanı. 6 mart 2000. – B., 2000
3. Azərbaycan Respublikasının qadın problemləri üzrə Milli Fəaliyyət Planı haqqında. Azərbaycan Respublikası Nazirlər kabinetinin qərarı 6 mart 2000 B., 2000
4. Qender: qadın probleminin yeni mərhələsi (Respublika Konfrasının materialları: 12 fevral 1998-ci il.). – B., 1998
5. Декларация по проблеме равенства между женщинами и мужчинами в качестве фундаментального критерия демократии. Материалы IV Межинистерской Европейской конференции по проблемам равенства между женщинами и мужчинами. Стамбул, 13-14 ноября. 1997г.- Страстбург, 2001
6. Леди-лидер. Дайджест. По материалам «Школы женского лидерства». Составитель: С.Громова. – М., 1997
7. Мандаль Р. Прошлое и будущее //We/ Мы. Диалог женщин, 2001, № 14
8. Ребчук А.В. Курс политологии. – М., 2001
9. Роденберг Б., Вихтерих К. Emprowerment. Влияние женщин на характер власти. - Берлин, 1999
10. Степанова Н.М. Опыт использования гендерных квот в странах Западной Европы // Общественные науки и современность, 1999, № 4
11. Хрестоматия по курсу «Основы гендерных исследований». – М., 2000
12. Шведова Н. Женщины и власть // Права женщин в России. Законодательство и практика 1999, № 4-5
13. Burns Y. Leadership. – N.-Y., 1978
14. Women & Politics and Decision-Making in the Late XX-th Century. A United Nations Study. United Nations Office in Vienna, Center for Social Development and Humanitarian Affairs, 1992
15. www.guide2womenleaders.com
16. www.owl.ru
17. www.ipu.org